

# YUBİLEY ƏRƏFƏSİNDƏ

Əvvəllər burada heç kimdən heç nə gözləmirdilər – mütəxəssisləri özləri hazırlayır, gənclərə təcrübə keçirdilər. Gənclər də təcrübə və axtarış üsulu ilə bu incə peşənin sirlərinə yiyələnirdilər. Nadir əşyalarla ünsiyyətdə olan milli bərpaçılığın gənc ustaları öz məktəblərini yaratmışdı. Onlar qədim ustaların ixtiraçılıq qabiliyyətinə heyran olub, hər dəfə yeni sirləri aşkara çıxarır, qədim əşyalar tədqiq etmək üçün maraqlı yollar axtarırdılar.

Hazırda mərkəzdə elmi-tədqiqat, rəngkarlıq, qrafika və dekorativ-tətbiqi sənət şöbələri fəaliyyət göstərir. Bioloq, kimyaçı və fizikin çalışdığı mərkəzdə 23 bərpaçı-rəssam qədim əşyalara, sənət nümunələrinə ikinci həyat bəxş edir. Bərpa üçün gətirilmiş hər hansı nümunə, yaxud əşya ilk növbədə dezinfeksiya olunur, onun adına elmi pasport açılır, gəldiyi vəziyyətdə fotoşəkli çəkilir. Sonra da mütəxəssislər, həmin əsər üzərində üzücü və zərgər işini, mikro-cərrahdəqiqliyini xatırladan əməliyyata başlayırlar. Bu əməliyyat həmin əsərin vəziyyətindən asılı olaraq aylarla uzana bilər. Bəzən hər hansı boyanı almaq, parçadan keyfiyyət eyniliyinə nail olmaq üçün müxtəlif texnoloji proseslərə müraciət edilir. Bəzən də rəsm əsərinin rəng təbəqəsi yenidən təzə kətana köçürülür. Bərpa zamanı tədqiqat işi də aparılır. Belə ki, əsərlərin həqiqi müəllifi yarandığı dövr də dəqiqləşdirilir.

Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi-Bərpa Mərkəzinin son zamanlar təhvil verdiyi işlər arasında Bəhruz Kəngərlinin əsərlərini, Əzim Əzimzadənin, Cəlil Məmmədquluzadənin, A.Şaiqin, L.M.Rastropoviçlərin mənzil muzeylərində olan unikal eksponatları qeyd etməliyik. Azərbaycanın görkəmli bəstəkarı Ü.Hacıbəyovun 120 illik yubileyi ilə əlaqədar Mərkəzin əməkdaşları yerində külli miqdarda əşyaları bərpa edib, onlara 2-ci həyat vermişlər. Şuşa şəhərinin süqutu ilə əlaqədar olaraq Ü.Hacıbəyovun Şuşada yerləşən ev-muzeyində bəstəkara aid şəxsi əşyaları bərpa edilib.

Mərkəz mütəmadi olaraq aparıcı muzeylərlə (L.Kərimov adına Azərbaycan Xalçası və Xalq-Tətbiqi muzeyi, R. Mustafayev adına İncəsənət Dövlət muzeyi, Azərbaycan Dövlət Musiqi Mədəniyyəti muzeyi) əməkdaşlıq edir.

Mərkəz xalça muzeyindən ildə 50-ə yaxın xalça və tikmə məmulatlarından olan eksponatları bərpa və konservasiya edir. Xalça üzrə bərpaçılarımız XVII əsrə aid xalçaların bərpası zamanı, süni saplardan, boyalardan istifadə etmirlər. Sapları təbii rənglər – otlar vasitəsilə boyayırlar.

Mərkəzin əməkdaşları heç bir müraciət gözləmədən Azərbaycanın bütün guşələrindəki diyarşünaslıq muzeylərini öz himayələri altına almışlar. Nəticədə mərkəzin əməkdaşları çoxlu maraqlı kəşflər etmişlər. Masallı rayonunda yaşayan tarix müəllimi yarım əsrdən artıq bir müddət ərzində ətrafı gəzərək, kəndlərdən məlumat alaraq qədim əşyaları toplamaqla məşğul olub. O, hətta uzaq səfərlərə çıxmaqdan belə çəkinməyib. Nəticədə onun kolleksiyasında on minlərlə qiymətli əşya toplanmışdır. Onlardan əsl tarix-diyarşünaslıq muzeyi təşkil olunmuşdur. Əlbəttə bir çox eksponatın vəziyyəti təşviş doğururdu – onlara heç vaxt təcrübəli mütəxəssis əli dəyməmişdi. Yaxşı ki, atasının vəfatından sonra Əntiqə Tağıyeva Bərpa Mərkəzinə müraciət etdi. At tükündən hazırlanmış əşyalar, X əsrə aid bürünc, tunc və misdən düzəldilmiş pullar və pullu





***Azərbaycanda bərpaçılıq sənətinin 50 illik tarixi vardır. Belə ki, keçmiş SSRİ- də qədim dövlətlərin nadir abidələri qoruyub saxlamaq məqsədi ilə peşəkar restovrasiya məktəbi və ixtisaslaşdırılmış mərkəzləri yaranan zaman Moskva, Sankt-Peterburq və Kiyev şəhərinin ardınca 1957- ci ildə ilk professional azərbaycanlı bərpaçı - rəssam Fərhad Hacıyev laboratoriya təşkil etdi. Sonra İncəsənət Muzeyi nəzdində bərpa emalatxanası kimi fəaliyyət göstərməyə başladı və İçəri şəhərdəki "Bəylər" məscidinin binasında yerləşdirildi. 1980-cı ildən emalatxana Nazirlər Sovetinin qərarı ilə müstəqil bərpa mərkəzinə çevrildi.***

kəmərlər, ziynət əşyaları və bu kimi 50-dən artıq nadir əşyalar kolleksiyası mərkəzin əməkdaşlarını heyran qoydu. Həvəslə işləyən bərpaçılar bir əşyanı xilas etdiklərinə görə qürur hissi keçirirlər.

Bir müddət əvvəl Quba, Abşeron və Neftçala rayon tarix-diyarşünaslıq muzeylərindən unikal eksponatları bərpa və konservasiya edib ünvanlarına göndərmişik. Bərpa Mərkəzində ömrü uzadılan hər hansı xatirə əşyası, yaxud sənət əsəri ən azı 100 il də öz dövrünün məlumat daşıyıcısı missiyasını davam etdirir.

Əməkdaşlarımız Şəki, Şəmkir, Şamaxı, Lənkəran, Gədəbəy və başqa rayon muzeylərdə mütəmadi iş aparır, metodiki tövsiyyələr verir.

Öz təkrarolunmazlığı ilə insanı sevindirən, onu özünə cəlb edən əşyalar axınının ardı-arası kəsilmir. İş hər zaman çoxdur. Burada hər görülən işin elmi əsasları var. Belə ki, mərkəzdə Elmi-Bərpa Şurası fəaliyyət göstərir. Bu şuraya görkəmli alim və sənət adamları, həmçinin mərkəzin səriştəli mütəxəssisləri daxildir. Bərpa şurasının sədri Azərbaycan MEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun "Arxeoloji abidələrin bərpası və konservasiyası" qrupunun müdiri, Memarlıq doktoru Vilayət Kərimov, Azərbaycanın Rəssamlar İttifaqının katibi, əməkdar incəsənət xadimi Ağaəli İbrahimov, Azərbaycan MEA-nın Memarlıq və İncəsənət İnstitutunun aparıcı elmi işçisi, sənətşünaslıq doktoru Cəmilə Həsənzadə, xalçaçı-rəssam, Azərbaycan Rəssamlar İttifaqının üzvü Tariel Bəşirov və digər bərpaçılar hansı əşyanın öz əvvəlki şəklində bərpa edilməsini, hansı əşyanın isə qədim mədəniyyət nümunəsi kimi mühafizə edilməsini müəyyənləşdirir.

Bərpa Mərkəzinin fəaliyyəti ölkə çərçivəsindən kənara çıxır. Bir neçə il əvvəl Pakistanda YUNESKO-nun bərpaçılar üçün keçirdiyi seminara mən də qatılmışam. Bundan başqa İran, İtaliya, Sankt-Peterburqda keçirilən treninq kurslarda əməkdaşlarımız fəal iştirak ediblər. Onlar nəinki Azərbaycanın bərpaçılıq sənəti, həmçinin doğma vətənimiz haqqında geniş məlumat veriblər. Hətta keçirilən seminarlardan sonra Tacikistan, Türkmənistan və Gürcüstandan bizim mərkəzdə ixtisaslaşma keçmək istəyənlər də tapılıb.

2007-ci ildə mərkəzimizin 50 illik yubileyi olmalıdır. Bütün çətinliklərə baxmayaraq Mərkəzin qocaman əməkdaşları Natiq Səfərov, Almaz Məmmədova, Ələsgər Əliyev, Rühəngiz Əliyeva, Bəstixanım Əliyeva, Ülviyyə Şirinova, Gülminə Əhmədova, Sənubər Quliyeva, Xatirə Tağıyeva, Sima Quliyeva, Xatirə Əmirova və başqaları bu yubileyin keçirilməsinə böyük həvəslə hazırlaşırlar. Mərkəzə gənc ikən gələn oğlan və qızlar burada böyümüş, çox şeyi öyrənmiş, qədim və orta əsr sənətkarlarının sənətinin sirlərinə tədricən yiyələnərək öz xalqının tarixinə bağlı olduqlarını anlamışlar. Hər dəfə köhnə rəsm əsərlərini, afişaları, qəzetləri, məşhur insanların paltarlarını, ölkənin müxtəlif bölgələrindən gətirilmiş bəzək əşyalarını, əl işlərini, nadir kəşkülü, kürdünü, daraqqabını, tənbəki kisələrini, möhürqabını və XII-XIII əsrlərə aid olan çırağı həyata qaytarmağa müvəffəq olan əməkdaşlar fərəh hissi keçirirlər. Başqa cür ola da bilməz. Axı bu vətən naminə, həmvətənlərin şüurunun artırılması naminə sərf edilən məsuliyyətli əməkdir.

**Zərifə MƏLİKOVA,**
***Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzinin direktoru***